

ŞAHMƏMMƏD DAĞLAROĞLU

## SƏNSƏN

Dünyanın hesabsız möcüzəsi var,
Kim nə deyir, desin, birisi sənsən.
Hər canlı varlığın son nəfəsi var,
Həyatın eşq adlı dirisi sənsən.

Sevdan iliyimə, qana yeridi,
Mən nalə çəkəndə yer-göy kiridi.
Gözümə min gözəl düşdü, əridi,
Xəyala gəlməyən qeyrisi sənsən.

Salıb gəncliyini, keçmişi yada,
Atır Dağlaroğlu özünü oda.
Sən də Tanrı kimi, təksən dünyada,
Sözümün əvvəli, gerisi sənsən.

## BAŞIMA GƏLƏNLƏRƏ

Məni  incidənin buna "haqq"ı var,
Gərək əzəl gündən baş əyməyəydim.
Bir işi beş gördüm, hörmət xətrinə,
Beləcə, illərlə xətrimə dəydim.

Qorxaqlıq sayıldı ədəb-ərkanım,
Haqqını yad yedi gördüyüm işin.
Haqq olub haqqıma qənim kəsildim,
Bunda günahı yox, yadın, keçmişin.

Daha xeyri yoxdur "yox" deməyin də,
Nə ömür dönəndi, nə bəd düzələn.
Bu sirri açdım ki, bəlkə dərs olar,
"Baş üstə!" - deyənə başıma gələn.

## DAİM BİZİMLƏSİZ...

Qarşında durana  can de ürəkdən,
Saf ol, Haqqı tanı, ay sənə qurban!
Qoyunu, quzunu kəsmək ilə sən,
Varlı birisitək ad qazanırsan...

Duz-çörək kəsmişəm halallarla mən,
Onlarla qəm, fərəh, ürək bölmüşəm.
Yüz yaşa, halalca qazanıb yeyən,
Harın süfrəsində yoxam, ölmüşəm.

Vətənin yolunda qurban gedənlər,
Sizindir bu bayram, qurban Sizsiniz!
İgid ölməzlərim - ərlər, ərənlər,
Daim bizimləsiz, varsız, əzizsiz!..

## İNSAN OL

Gülməyə gəlmədik bu dünyaya biz,
Göz yaşla dolubsa, ağlamalıyıq.
Əgər yolçuyuqsa, qoymalıyıq iz,
İnsanlıq adını saxlamalıyıq.

Günəşdən nurludur, halal, təmiz ad,
Bu cür yaşayanlar, canım, gözümdür.
Yoxsulun sərvəti - düzlük, istedad,
Dəyişməyən amal, sonsuz dözümdür.

Necə sevməyəsən belə insanı -
Hörməti, yeri var Haqqın yanında.
Hamı tərk edəcək bir gün dünyanı,
İnsan ol, insanlıq daşı canında.

# ŞƏHİD ANASININ MONOLOQU

Əlindən tutardım, yıxılmayasan,
Oğul, yıxılmışdım, qaldırdın məni.
Sənin hünərinlə nurlandı cahan,
Şən, azad görürəm bu gün Vətəni!

İndi üzüm kimi, saçım da ağdır,
Eldə, hər ürəkdə yer tutub adın.
Ruhun inciməsin deyənə sağdır,
Anandır dünyada ən məğrur qadın.

Ziyarət olunur hər gün məzarın,
Burda solan çiçək dəyməyir gözə.
Sən saf nümunəsi əhdin, ilqarın,
Dönmüsən dillərdə müqəddəs sözə.

Adını bilmədim sevdiyin qızın,
Bir gözəl gördümmü, sanıram odur.
Bu il qısa oldu yolu payızın,
Toyunu görmədim, tək dərdim budur.

Dərd ağır olsa da, gətirirəm tab,
Ölməz bir övladın anasıyam mən!
Tapmışam ən çətin suala cavab -
Şəhid məzarından başlanır Vətən!

# GECƏ YAZILAN ŞEİR

Səhər yuxusutək şirinsən, gözəl,
Qəlbimi boş qoyub, girirsən gözə.
O qədər cavan var, şeir yazan var,
Yaman inanırsan mən deyən sözə.

Yuxuma gəlişin təsadüfmüdür,
Yoxsa, gecə-gündüz fikrində mənəm?
Gündüz qaş-qabağın daşı üyüdür,
Yuxuma girəndə sən - ipək, sənəm.

Göydəki ulduzun ən parlağı sən,
Qaçırsan gözümdən söküləndə dan.
Mənə yük etmisən daşı, dağı sən,
Nədən mərhəmətin oyanmır bir an?

Yağışı olmayan ağ bulud kimi,
Alırsan başımın üstünü hərdən.
Gizlədə bilmirəm gecə sevgimi,
Səni soruşuram gələn səhərdən.

Könlüm sənin üçün oyuncaq deyil,
Gecə oxşayasan, gündüz atasan.
Bir qoca sözbazam, sənsə gənc tifil,
Məni dinc buraxıb, bəlkə yatasan?!

# ŞƏHİD ŞƏKLİ İLƏ SÖHBƏT...

*Vətən müharibəsinin bütün şəhidlərinə*

Min kitablıq yazı var, oxuyuram gözünü,
Ürəyini oxumaq, asan, müyəssər deyil.
Canını qurban verib, söyləmisən sözünü,
Bağışla, yazdığımsa heç layiq əsər deyil.

Canının bahasına, sən torpaq aldın bizə,
Səni doğan ananın baş əyirik önündə!
Hər gün oyanan Günəş - əbədi mübarizə,
Ruhun şad olsun, oğul, Vətənin hər günündə!

Dünən bir məhəllədə, bir evdə tanınırdın,
Bu gün sənin hünərin Allaha da bəllidir!
Sən düşmənin belini polad əzminlə qırdın,
Yazda bitəcək lalə - qanındır, təsəllidir.

Şuşada qalxan bayraq eşqinlə dalğalanır,
Nəfəsinlə canlanıb Qarabağın torpağı.
Adın gələndə alqış alqışlara calanır,
Aydan, ulduzdan gəlir hünərinin sorağı.

Şəklinlə üz-üzəyəm, canlı həmsöhbətimsən,
Fəxr edir, qürur duyur, səninlə atan-anan.
Sən düşmənə nifrətim, yurda məhəbbətimsən,
Bu xalq, bu Vətən səni unuda bilməz bir an!

# A DAĞLAR

Hər sizi görəndə açılır dilim,
Sizdən aralıda lalam, a dağlar.
Nədən dağ oldunuz, deyin mən bilim,
Gələm, qadanızı alam, a dağlar!

Paklığın rəmzidir zirvənizdə qar,
Bir-birinə arxa, daş olmuş qatar.
Sizə arxalanır bu el, bu diyar,
Sizsiniz alınmaz qalam, a dağlar!

Ucası atamdı, yanında anam,
Yamacı güllüsü - sevgilim, sonam.
Sizsiniz dəyanət, əzəmət, inam,
Sizə oxşayaydı balam, a dağlar!

Dərdimi yandıram ocağınızda,
Uyuyam laləli qucağınızda.
Yazı salamlayan o çağınızda,
Şirin xəyallara dalam, a dağlar!

Yay günü olsa da, tez düşdü axşam,
Göylər zirvənizə səpdi ulduz - şam.
Könülsüz gedirəm, Dağlaroğluyam,
Bir də gəlib deyəm: Salam, a dağlar!
8 avqust 2021-ci il, Qax-İlisu

## SEVGİ ÖLMƏYƏN RUHDU...

Getmə, çəkim şəklini, edim sənə hədiyyə,
Örtmə o pəncərəni, arxasında sən varsan,
Dilin danlaya məni, ürəyinsə "hə" deyə
Eşit şair deyəni - hamıdan bəxtiyarsan!

Etmə bu qədər nazı, dəli olar görənlər,
Tanrı sənə azcana insaf gərək verəydi.
Adına gül toplayıb sənə çələng hörənlər
Sən keçdiyin yollara gül səpmişəm, görəydi.

Sevgi ölməyən ruhdu, ömür gəldi-gedərdi,
Bunu bilib sevməsən, ən böyük cani sənsən.
Səni görmək təsadüf, sənin olmaq qədərdi,
Ölüb bir də dirilsəm, səni sevəcəyəm mən!

## BU QIZ

Aynası, darağı düşmür əlindən,
Könül verdiyi kəs öpə telindən.
Mənim ürəyimdən, onun dilindən,
Bəlkə öz evinə yığışdı bu qız.

Çox gözəl görmüşəm, yoxdur ona tən,
Nə ola bu "bəla" olaydı ötən.
Ruhumu oxşayan, yolumda bitən,
Qəlbimdə kök salan baxışdı bu qız.

Güya mən Kərəməm, o da Əslidi,
Sözü şirin-şəkər, balın əslidi.
Könlümdə barlı bağ, payız fəslidi,
Gözümdə güllü yaz, yağışdı bu qız.

Tanrı, adıma yaz Sən bu günahı,
Gecəsi xoş keçən neylər sabahı?
Kiminin sevdası, kiminin ahı,
Şairin ömrünə naxışdı bu qız.

## GÖZƏLLİYƏ

Allah imza qoyub bu gözəlliyə,
Necə öyməyəsən, necə öyəsən?
Səni gördüyümdə yer məni tutmur,
Ötüb, qaldırırsan məni göyə sən.

Beləcə, gah göydə, gah da yerdəyəm,
Burda da, orda da sənsiz çətindir.
Ay zalım, bilirsən, Yer kürəsini
Oxunda fırladan məhəbbətindir!

İlahi, bu eşqi çox görmə mənə,
Onunla dövr edir səhər-axşamım.
O gözəli qoru, kəsmə nazından,
Yoxsa ki, məhv olar, sönər ilhamım.

## SƏN DUYA BİLMƏDİN MƏNİM EŞQİMİ

Ötdü neçə-neçə sevdalı illər,
Düşdü haldan-hala incik könüllər,
Bizim eşqimizdən danışdı dillər,
Hələ də sevirəm dəlilər kimi,
Sən duya bilmədin mənim eşqimi.

Gülün ləçəyinə yazdım adını,
Aldım həsrətindən sevgi dadını.
Qırdın ilk eşqimin cüt qanadını,
Hələ də sızlayır qəlbimin simi
Sən duya bilmədin mənim eşqimi.

Adınla isindim qışın qarında
Əridim, yox oldum intizarında,
Varlığım heç oldu sənin varında,
Açıldı könlümün sirri, tilsimi,
Sən duya bilmədin mənim eşqimi.

Səni tən bilirdim min mələk ilə,
Dururdum yolunda gül-çiçək ilə.
Sevgidə xam olan bu ürək ilə
Kimi sevməliydim, görəsən kimi?
Sən duya bilmədin mənim eşqimi.

Dünənin sabahla nə əlaqəsi?
Mən hələ o eşqin qulu, köləsi.
Bəlkə çatmır sənə könlümün səsi,
Öyrədən olmayıb eyhamı, himi?
Sən duya bilmədin mənim eşqimi.

Yarımçıq sözüm var, sabaha qalıb,
Ucuzlar alınıb, bir baha qalıb.
Mənim son ümidim Allaha qalıb,
Ona deyəcəyəm demədiyimi -
Sən duya bilmədin mənim eşqimi!

# GÖZÜNDƏN ÇƏKƏR

Deyirsən qəm yeyən, qüssə çəkənəm,
Sən dərdi bu qızın gözündən çək, ər.
Qoyma lalə yanaq sola, çəkə nəm,
Yoxsa ki, saçımdan gözün dən çəkər.

Üzdə busə yeri, güldü bu, gözəl?
Astaca "hə" dedi, güldü bu gözəl.
Güllərin içində güldü bu gözəl,
Arılar şirəni gözündən çəkər.

Açmaz Dağlaroğlu, heç vaxt qorxu dan,
Şər deyər: - Sən Haqdan görsən qorxu, dan.
Başqa nə olacaq məni qorxudan?
Gözümdə var ancaq gözündən çəkər.

# VƏTƏNİN TORPAĞI ARTDI BİR OVUC

*Xalq şairi Musa Yaqubun ölümünə*

Sən dünya içində bir dünya idin,
Getdin, bu dünyanın özəyi getdi.
Gözəl nə var idi qoşuldu sənə,
Dağımın, düzümün bəzəyi getdi.

Üzü qara olsun qara xəbərin,
Ölümün dərd oldu qara daşa da.
Biz də yer üzünün qonaqlarıyıq,
Tanrının işidir sözü yaşada.

Dəfninə gəlmişdi söz adamları,
Baxışlar, duruşlar lal sual oldu.
Qəbrinin torpağı gözəl Buynuzun
Güllü yanağında qara xal oldu.

Vətənin torpağı artdı bir ovuc,
Məzarın əbədi bir ziyarətgah.
"Dünyanın ən xoşbəxt adamısan ki",
Yaxın həmsöhbətin olacaq Allah.

# BU QƏDƏR

Çox ilə çoxdandır dəyibdir aram,
Az adam meyl edər aza bu qədər.
Kimə can söylədim, dərdinə yaram,
Nədən sevdi məni qəza bu qədər?

Çevrildim quluna bir günahımdan,
Bir gün ahım gecə, bir gün ahım dan.
Yarım, varsa əgər bir günahım, dan,
Rəva bilmə çəkim cəza bu qədər.

Yandıqca qurular, yaş da qalmadı,
Yaş üstə yaş gəldi, yaş da qalmadı.
Ağladım, gözümdə yaş da qalmadı -
Yağış saxlamazdı fəza bu qədər.

Dinləsən, min sehir vardır azanda,
İnsan şərə uyar, yolun azanda.
Bir göz qırpımında, qısa, az anda
Hardan tapdı məni əza bu qədər?

Bəxt şumladı, səpdi cana sevgi dən,
Saqqalımda yanaşıdır sevgi, dən.
İnanmıram, bir başqası sevgidən,
Danışa bu qədər, yaza bu qədər.

Böyük fərəh bəxş eləyər az almaz,
Tanrı sənə verdiyindən az almaz,
Yara eşqim, gülə meylim azalmaz,
Qışda can atanda yaza bu qədər.

Dağlaroğlu, ötə həftə, ay gözəl,
Gecə yarı, göy ulduzlu, Ay gözəl!
Cəlladmısan, qəsdin nədir, ay gözəl,
Kim səni öyrətdi naza bu qədər?

# AÇ QAPINI, GƏLİRƏM

Sıxır qəlbi həya, ar,
Dünyam - qoz içi, damdar.
Başqa ünvanımmı var?
Aç qapını, gəlirəm.

Gözləyincə axşamı,
Əriyər qəlbin şamı.
Evinə getdi hamı,
Aç qapını, gəlirəm.

Qapı döyməyə yox hal,
Soruşma: Bu nə əhval?!
Son dəfə qayğıma qal,
Aç qapını, gəlirəm.

Sən verdiyin zülüm xoş,
Yansam, sənə külüm xoş.
Dizin üstə ölüm, xoş,
Aç qapını, gəlirəm.